# Könüllü batalyonun bayraqdarı

**Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyev xalqımızın rəşadət dastanının parlaq səhifələrini öz qanı ilə yazanlardandır. Onun torpaqlarımızın azadlığı uğrunda göstərdiyi igidlik və şücaət heç zaman unudulmayacaq.**

Qəhrəman soydaşımız 30 ildir ki, aramızda yoxdur. Amma xatirəsi hər zaman bizimlədir. Əliyar pəhləvan cüssəsli, əzələli qolları, çevikliyi və cəsarəti ilə seçilib. Klassik güləş üzrə dəfələrlə respublika, ümumittifaq və beynəlxalq yarışların qalibi olub. Məşqçilik fəaliyyəti də uğurlu göstəricilərlə yadda qalıb. Əliyarın yetirmələrindən 8 nəfəri respublika və SSRİ birinciliklərində qalib gəlib, 1 nəfər isə olimpiya yığma komandasına üzv seçilib...

Bugünlərdə Əliyar Əliyevin ailəsi və bir qrup teleradio nümayəndəsi onun Qubadlı rayonunun Qəzyan kəndindəki məzarını ziyarət edib. Milli Qəhrəmanın övladı – Qubadlı rayon İcra Hakimiyyəti Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Emin Əliyev bildirdi:

– 30 il öncə Qarabağ müharibəsi başlananda atam könüllü olaraq döyüş meydanına atılıb. Müharibədə özünü təkcə döyüşçü kimi yox, həm də hərbi işin mahir təşkilatçısı kimi göstərib. O, əvvəlcə taborun kəşfiyyat bölməsinin komandiri, sonra tabor komandirinin müavini olub. 1992-ci ildən isə çevikliyi və üstün xüsusiyyətləri sayəsində tabor komandiri vəzifəsinə təyin edilib. Bütün tapşırıqları can-başla yerinə yetirib, Vətən üçün həyatını belə əsirgəməyib.

Əliyar Əliyevin qəhrəmanlıq nümunələri haqqında danışan tələbəlik



dostu Fazil Şahverdiyev isə dedi:

– O, düşmənin canlı qüvvəsinin məhv edilməsində dəfələrlə igidlik göstərib. Əliyar bir döyüşçü kimi, ən ağır və ən çətin məqamlarda təşəbbüsü ələ almağı bacarıb. Birinci Qarabağ müharibəsi başlananda onun ətrafında toplaşan gənclərdə böyük ruh yüksəkliyi yaradıb. O, rayon sakinlərindən və idmançı yoldaşlarından ibarət könüllülər batalyonu formalaşdıraraq, son nəfəsinə qədər düşmənə qarşı vuruşub. Əliyar könüllü batalyonunun bayraqdarı olub. 1992-ci ilin payızında 40 döyüşçü ilə birlikdə işğal altındakı Laçının aşağı kəndlərini 4 gün ərzində düşməndən azad etməyə nail olub.

Əliyarın son döyüşü 1992-ci il oktyabrın 3-də Laçının iki kilometrliyində olub. Həmin döyüşdə tabor komandiri Əliyar Əliyev və onun sürücüsü Əlisadət Ağayev qəhrəmancasına həlak olublar.

Qeyd edək ki, Əliyar Yusif oğlu Əliyev 1957-ci ildə anadan olub. 1979-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Sonra Sovet ordusu sıralarında hərbi xidmət keçib. Tərxis olunandan sonra Saransk Dövlət Universitetinə idman üzrə tanınmış mütəxəssis kimi dəvət edilib. İki il həmin universitetdə müəllim işləyib. Sonra atasının ölümü ilə əlaqədar kəndə qayıdıb, qəsəbə orta məktəbində müəllim, "Məhsul" könüllü idman cəmiyyəti rayon şöbəsinin məşqçisi vəzifəsində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 10 noyabr 1992-ci il tarixli 301 nömrəli fərmanı ilə Əliyar Yusif oğlu Əliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

2016-cı ildə Nizami Abbas Əliyar Əliyev haqqında "Pəhləvan komandir" adlı sənədli film çəkib.

Paytaxtın Nərimanov rayonundakı küçələrdən biri Əliyar Əliyevin adını daşıyır. Orada onun büstü də ucalır. 2017-ci ildə həmin küçədə onun xatirə lövhəsinin açılışı olub. Masazırda adına məktəb, Sumqayıtda və Binəqədidə isə "Əliyar" adlı bulaqlar var. Sumqayıt şəhərində idman klubu və yaratdığı tabor onun adını daşıyır. Qubadlı rayonunda abidəsi qoyulub.

***Elçin ABBASOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 18 dekabr.- S.9.